Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Son sərhəd təxribatlarının ifşası dövlət və ictimai mənafelərin müdafiəsinin ayrılmaz proses olduğunu bir daha göstərir...

## İctimai və dövlət maraqlarının müdafiəsi

**Azərbaycan Respublikasının milli təhlükəsizliyi dedikdə, onun müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun, xalqın və ölkənin milli maraqlarının, insanın, cəmiyyətin və dövlətin hüquq və mənafelərinin daxili və xarici təhdidlərdən qorunması başa düşülür.**

Ölkə qanunvericiliyinə uyğun olaraq, milli təhlükəsizliyin obyektləri insan - onun hüquq və azadlıqları, cəmiyyət - onun maddi və mənəvi dəyərləri, dövlət - onun müstəqilliyi, suverenliyi, konstitusiya quruluşu və ərazi bütövlüyüdür. Milli təhlükəsizliyin subyektləri isə insanların, cəmiyyətin və dövlətin təhlükəsizliyi maraqlarının və tələbatlarının təmin edilməsi məqsədilə yaradılmış dövlət hakimiyyəti orqanlarıdır. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təminatı sistemi ölkə Konstitusiyası və qanunları əsasında qarşılıqlı fəaliyyət göstərən və öz səlahiyyətləri çərçivəsində milli təhlükəsizliyin təmin olunmasına cavabdeh olan qüvvələrin və digər dövlət orqanlarının məcmusudur. Bu qüvvələr və dövlət orqanları milli təhlükəsizliyin təmin olunmasına görə məsuliyyət daşıyırlar. Bu eyni zamanda ictimai və dövlət maraqlarının qorunmasını şərtləndirir.

### İstər Vətən müharibəsi, istərsə də postmüharibə dövründə baş verən olaylar bu gerçəyi bir daha sübut edir

İctimai və dövlət maraqlarının qorunması hər bir cəmiyyətin başlıca məqsədlərindən biridir. Çünki hər iki amil bütöv bir toplum üçün həyati əhəmiyyət kəsb edir. Bu baxımdan, ictimai və dövlət maraqlarının müdafiəsi məsələləri daim aktuallığını qoruyur. Xüsusilə də biz bunu ölkəmizin ərazi bütövlüyünün qorunması zamanı aydın müşahidə edirik. Görürük ki, Azərbaycan Ordusu bir qarış vətən torpağı üçün necə canını fəda edir. Sərhəddəki son təxribatları ilə Ermənistan ümumilikdə bütün regionda sülh və təhlükəsizliyi təhdid etdiyini isbatladı. Son vaxtlar Ermənistanın Şuşa, Laçın, Kəlbəcər istiqamətlərində həyata keçirməyə çalışdığı çoxsaylı təxribatlar, Azərbaycan Ordusunun mövqelərini intensiv surətdə atəşə tutması, müəyyən əraziləri ələ keçirmək məqsədilə hücum əməliyyatlarının təşkilinə səy göstərməsi müşahidə edilir. Belə addımlar bölgədə vəziyyəti gərginləşdirməyə xidmət edir ki, bu da regiondakı bütün dövlətlərin maraq və mənafeyinə ziddir. Bu baxımdan həm region dövlətləri, həm qlobal güclər, həm də beynəlxalq təşkilatlar erməni təxribatlarına qəti etirazını bildirməli, bu təxribatlara son qoymaq üçün rəsmi İrəvana təzyiq göstərməlidir. Heç kim unutmasın ki, Azərbaycan Ordusu istənilən təhdid və təxribatın qarşısını almağa qadirdir və istər Vətən müharibəsi, istərsə də postmüharibə dövründə baş verən olaylar bu gerçəyi bir daha sübut edir. Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə, təhlükəsizliyinə qarşı yönələn istənilən təxribatın qarşısı bundan sonra da ordumuz tərəfindən qətiyyətlə alınacaq, bu təxribatı həyata keçirənlər ciddi şəkildə cəzalandırılacaq. Bu, Ermənistanın açıq hərbi-siyasi təxribatıdır. Ermənistanın keçmiş müdafiə naziri Arşak Karapetyanın Azərbaycanın müvəqqəti Rusiya sülhməramlılarının nəzarətində olan ərazisinə qanunsuz səfəri, burada hərbi təyinatlı müşavirələr keçirməsi sülh prosesini pozmaq cəhdi idi. Ermənistan silahlı qüvvələrinin 60-a yaxın şəxsi heyətinin Laçın rayonunda Azərbaycan Ordusunun mövqelərinə aparan yol üzərində cəmləşməsi, habelə Ermənistan silahlı qüvvələrinin Kəlbəcər və Laçın rayonundakı Azərbaycan Ordusunun mövqelərini intensiv atəşə tutması da göstərdi ki, Ermənistan tərəfi məqsədyönlü şəkildə vəziyyəti gərginləşdirir, regionda sülh və təhlükəsizliyin təmin olunmasında, eləcə də Azərbaycanla sərhədlərin delimitasiyasında maraqlı deyil. Təbii ki, mövcud vəziyyətdə baş verən bütün insidentlərə görə məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.




### Dəmir yumruq yerindədir…

2020-ci il 10 noyabr üçtərəfli bəyanatından sonra Azərbaycan bu sənədin icrası ilə bağlı konkret addımlar atsa da, Ermənistan bunun əksini etdi. Razılaşmanın müddəalarını yerinə yetirmədi və bu gün yerinə yetirmək istəmir. Sərhəddə təxribatlar törətməklə, diversant qruplardan istifadə edərək, bölgədə gərginiliyi artırmaqla sülh prosesini pozmağa cəhd edirdi. Amma Azərbaycan hər nə qədər Ermənistana yeni mərhələdə əməkdaşlıq təklif etsə də, qeyri-adekvat davranışlara sərt cavab veriləcəyini də bəyan edirdi. Müzəffər Ali Baş Komandan hər zaman bəyan edib ki, dəmir yumruq yerindədir, Ermənistanın təxribatları heç bir halda cavabsız qalmayacaq. Bu gün sərhəddə baş verənlər bunu bir daha təsdiqlədi. Ermənistanın hücumu iflasa uğradı. Bird aha sübut olundu ki, Azərbaycan hərbçiləri ölkəmizin suveren ərazilərində xidməti vəzifələrini yerinə yetirirməklə, ictimai və dövlət maraqlarımızı göz bəbəyi kimi qoruyurlar.

*Məhəmmədəli QƏRİBLİ*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**